İPƏK YOLU, No.1, 2019, səh.105-109

# MKRTİÇ XRİMYAN TÜRK-MÜSƏLMAN SOYQRIMININ İLK İDEOLOQU VƏ YARADICISI KİMİ

**Məhəmməd Əliyev**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan

**Xülasə.** Məqalədə XX əsrin əvvəllərində Zaqafqaziyada başlanmış erməni-azərbaycanlı münaqişəsi və daha sonra azərbaycanlıların soyqırımı ilə nəticələnmiş çox mürəkkəb milli-siyasi proseslerin tarixi kökləri araşdırılır. Müəllif bu kökün əsas daşıyıcılarından biri olan Mkrtç Xrimyanın mürtəce fəaliyyətini təhlil edir.

**Açar sözlər**: Soyqrım, Xrimyan, ideologiya, tarixi şərait, müsəlman, türk.

## MKRTCH KHRIMYAN AS THE FIRST IDEOLOGIST AND CREATOR OF THE TURKIC-MUSLIM GENOCIDE

**Mahammad Aliyev**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** The paper discusses the historical roots of the complex national-political processes that led to the Armenian-Azerbaijani conflict in the South Caucasus at the beginning of the 20th century and the subsequent genocide of Azerbaijanis. The author analyzes the reactionary activities of Mkrtch Khrimyan, one of the main carriers of these events.
**Keywords**: Genocide, Xrimyan, ideology, historical conditions, muslim, turkish.

## МКРТИЧ ХРИМЯН- КАК ПЕРВЫЙ ИДЕОЛОГ И СОЗДАТЕЛЬ ТЮРКСКО-МУСУЛЬМАНСКОГО ГЕНОЦИДА

**Махаммад Алиев**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме**. В статье рассматриваются исторические корни сложных национально-политических процессов, приведших к армяно-азербайджанскому конфликту в Закавказье в начале XX века и последующему геноциду азербайджанцев. Автор анализирует реакционную деятельность Мкртича Хримяна, одного из основных носителей этого движения.
**Ключевые слова:** геноцид, Хримян,идеология, исторические условия, мусульман, тюрк.

XX əsrin əvvəllərində Zaqafqaziyada başlanmış erməni-azərbaycanlı münaqişəsinin açıq təzahürü 1918-ci ildən soyqrım siyasətinə və Azərbaycan xalqı üçün tale yüklü bir məsələyə çevrilmişdir. Proseslərin çox dərin ictimai-siyasi və etnik-sosial kökləri vardır. Belə ki, erməni millətçilərinin Azərbaycan xalqına qarşı həyata keçirdikləri bu dəhşətli soyqrım siyasəti heç də birdən – birə meydana çıxmamış, uzun illərin süzgəcindən keçən və formalaşan bir çirkin siyasətin açıq təzahür forması olmuşdur. Bu siyasətin formalaşmasında bir sıra erməni qabaqcıl siyasi və dini nümayəndələrinin çox böyük anti-türk və anti-müsəlman nəzəriyyəsinin həyata keçirilmə təcrübəsi olmuşdur.

Belə erməni siyasi-dini nümayəndələrindən biri də XIX əsr və XX əsrin lap əvvəllərində yaşamış və fəaliyyət göstərmiş, bütün ermənilərin katalikosu vəzifəsinə qalxan M.Xrimyan olmuşdur. Soyqrımların ilkin siyasi kökləri tarixində demək olar ki, adının çəkilməsi unudulan Xrimyan əslində bu soyqrımların proqramını işləyib hazırlayan qabaqcıl erməni nümayəndələrindən olmuşdur.

Mkrtiç Xrimyan 1820-ci ildə (aprelin 4-də) Osmanlı İmperiyasının Van Şəhərində (Ayhestan rayonu - erməni mənbələrinə görə) doğulmuşdur. İlk təhsilini öz əmisi Xaçaturyandan öz doğulduğu kənddə alan Xrimyan, daha sonra Şərqi Anadoluya Lima və Vaspurakan adlı dini məktəblərdə davam etdirmişdir. 1842-ci ildə İstanbula (Kanstantinopol) gəlmiş və müəllimlik etmişdir. Elə bu dövrdən də, o erməni tarixçiliyi və millətçiliyinə dair mühazirələr hazırlamış və öz mədəniyyətlərini təbliğ etmişdir.

1851-ci ildən erməni patriarxaqlığının (İstanbul şəhərində) göstərişi ilə Klikiyaya göndərilmiş və burada yaşayan ermənilərin həyat tərzini və yaşayışını öyrənmək adı ilə əslində onların üzərində təbliğat aparmağa başlamışdır. Burada üç il təbliğatla məşğul olduqdan sonra 1854-cü ildə Vana qayıdır və Axtamar monastrında monarx olmuşdur. Burada o, “mxitaristlər” təliminə uyğun tipoqrafiya yaratmaq istəsə də uğursuzluğa məruz qalır.

1860-cı ildə M.Xrimyan Qərbi Azərbaycana (erməni təbiriycən Şərqi Ermənistana) gəlir. Burada özünün anti-türk və anti-müsəlman təbliğatını davam etdirərək, yeni seminariya və “Artsvik Taroni” qəzetinin əsasını qoyur. Xrimyan bu ərazidə ermənilər yaşayan bölgələrə səfərlər edir, türklərə qarşı təbliğatla böyük nüfuz qazanır və erməniləri müsəlmanlara qarşı hər cür mübarizə aparmağa səsləyir. O, erməniləri kürdlər və türklərlə qarşı-qarşıya qoyur və bu sahədə özünün qazandığı nüfuzdan məharətlə istifadə edir. Ermənilər içərisində onları türklərə qarşı mübarizəyə çağırışına görə ona “Hayriq” adı (yəni ermənilərin atası) verirlər. Çox keçmir ki, Xrimyan Eçmiədzin kilsəsinə yepiskop qoyulur və bir ildən sonra İstanbulda erməni patriarxı seçilir. Lakin beş ildən sonra 1873-cü ildə o yenidən Vana qayıdaraq ermənilər arasında öz təbliğat kampanyasını davam etdirir.

M.Xrimyan erməni məsələsini bəynəlxalq arenaya çıxarmaq və qondarma böyük erməni dövləti yaratmaq məqsədi ilə bir sıra Avropa ölkələrinə səyahətə çıxır və yenicə başa çatmış rus-türk müharibəsi və San Stefano sülhündən sonra toplanan Berlin konqresində iştirak edir. Konqresdə iştirak etmək üçün Xrimyan özü ilə 22 yaşlı Minas Çerazı tərcüməçi götürmüşdü. 1878-ci ilin martın 20-də erməni nümayəndəliyi İtaliyaya gəlir. Martdan iyula qədər M. Xrimyan Fransa və Böyük Britaniyada olmuş, müxtəlif siyasi xadimlər ilə, o cümlədən İtaliya Krallığı xarici işlər naziri qraf Luği Korti (Kayroli kabinetində, Berlin konqresində İtaliya nümayəndəliyinin rəhbəri), Fransa xarici işlər naziri senator Uilyan Henri Vaddinton, Böyük Britaniya xarici işlər naziri Lord Robert Artur Talboto Qaskoyn və bir sıra Avropa ölkələri səfirləri ilə ermənilərə kömək barədə danışıqlar aparmışdır. Xrimyan və onun erməni nümayəndəliyi bu görüşlərdə Osmanlı İmperiyasından ermənilərin acınacaqlı vəziyyətini nümayiş etdirməyə çalışmışlar. Burada Xrimyan bütün nümayəndələrdən sakitləşdirici frazalar, vədlər eşitmiş və bunlar vəd olaraq qalmışdır.

1878-ci ilin mayın 30-da San-Stefano sülh müqaviləsinin şərtlərini yenidən nəzərdən keçirmək, burada erməni məsələsini də nizama salmaq barədə Londonda gizli ingilis-rus razılaşması imzalanmışdır. Bu işdə Xrimyanın böyük rolu olmuşdur.

Məlum olduğu kimi, 1878-ci ilin iyunun 1-də Böyük Britaniyanın senarisi üzrə Berlində konqres başlayır. Xrimyanın bütün xahişlərinə baxmayaraq erməni nümayəndəliyi konqresə buraxılmırlar. Konqresdə adı çəkilən erməni məsələsi və Osmanlı İmperiyası hüdudlarında ermənilərə müəyyən hüquqların verilməsi məsələləri 61-ci yerdə müzakirə edilir və bu da tezliklə unudulur. Avropadan demək olar ki, “əliboş” qayıdan M.Xrimyan bütün erməni xalqını silahlanmağa və öz gələcəkləri uğrunda sərbəst şəkildə mübarizə aparmağa səsləyir. Bununla da M.Xrimyanın əsil anti-müsəlman siması üzə çıxır. O erməniləri təşkilatlanmağa və öz hüquqları uğrunda türklərə qarşı terrorçuluq mübarizəsinə də lazım gələrsə səsləmişdir. Bu çağırışdan sonra Osmanlı İmperiyası və Rusiyanın Zaqafqaziya quberniyalarında habelə Qars vilayətində ayrı-ayrı yerlərdə müxtəlif erməni terrorçu qrupları meydana gəlir.

1892-ci ilin mayın 5-də Eçmiədzin alı dini məclisi M.Xrimyanı erməni Apostol kilsəsinin başçısı və bütün ermənilərin katalikosu seçmişdir. Rusiya İmperatoru III Aleksandr və Osmanlı sultanı II Əbdül Həmid I Mkrtçik seçkisinin 93-cü ilin iyunun 8-də tanıyırlar. Sultan Xrimyanın tanınmasını onun Osmanlı İmperiyasının ərazisini tərk etməmək şərtilə təsdiqləmişdir. Lakin M.Xrimyan 1893-cü ilin avqustun 3-də Yerusəlimdən Misirə yollanır, oradan da Eçmiədzinə gələrək 1893-cü ilin sentyabrın 26-da Erməni Apostol kilsəsinin taxtında əyləşir.

1895-ci ildə M.Xrimyan Sank-Peterburqa gedir. Xrimyan, bütün erməni qabaqcıl nümayəndələri kimi düşünürdü ki, ermənilərin “müsəlman zülmündən” xilas olması yolu yalnız Rusiya İmperiyasından başlayırdı. Bu ümidlərlə o, bir-sıra rus hərbi nümayəndələri ilə görüşür və bu görüşlərdə “başlanmış erməni hərəkatına hərbi və digər cəhətlərdən kömək etmək” məsələləri müzakirə edilir. M.Xrimyan Rusiya İmperiyasının yeni imperatoru 27 yaşlı II Nikolayla da hətta görüşə bilir. II Nikolay Xrimyanı erməni xalqı qarşısında göstərdiyi xidmətə görə müqəddəs Andrey ordeni ilə təltif edir. Bundan başqa II Nikolay Osmanlı ərazisində, “Qərbi Ermənistan adlandırdıqları regionada yaşayan ermənilərin hüquqlarını himayə edəcəyini Xrimyana əminliklə bildirir. Daha sonra M.Xrimyan “erməni məsələsinin” həlli yollarını müxtəlif siyasi dairələrdə müzakirə edir.

M. Xrimyan bütün bu siyasi və etnik təbliğatları nəticəsində Osmanlı Turkiyəsi ərazisində yaşayan ermənilər, türk hökümət nümayəndəlikləri və sadə əhali kütləsi ilə, çox zaman silahlı münaqişələrlə nəticələnən fəal mübarizəyə başlayırlar. Və bu mübarizələr 1895-1896-ci illərdə Şərqi Anadoluda erməni-kürd-türk qarşıdurmasına səbəb olur. 1894-1896-ci illəri əhatə edən bu qarşıdurma üç əsas hadisələr yığını ilə xarakterizə olunur. Sasus, İstanbul və Van hadisələri. Bütün bu hadisələr ilk növbədə Sasusda M. Xrimyanın təşəbbüsü ilə ‘Qnçak’-çıların fəal iştirakı ilə 1893- cü ildə bir sıra yərlərdə (məsələn: Talvoriq kəndində) erməni əhalisinin silahlandırılması ilə başlanılmışdır. 1894-cü ilin yazında kürdlər və Osmanlı çinovnikləri həmin kəndlərin əhalisindən vergi tələb etdikdə, onlar vergi ödəməkdən imtina edir və çinovniklərə silahlı hədə-qorxu gəlirlər. Bu isə tərəflər arasında qarşıdurmaya səbəb olur. Ermənilərin ciddi silahlı müqavimətini qıra bilməyən çinovniklər

Bitlisin valisi (qubernatoru) Həsən Tekeinə kömək barədə müraciət edirlər və Zəki paşanın komandanlığı altında dördüncü ordu korpusunu kürdlər və çinovniklərin köməyinə göndərir. Bir aydan çox, erməni silahlıları Zəki paşanın ordu hissələrinə müqavimət göstərir, qeyd etmək lazımdır ki, bu müddət ərzində türk ordu hissələri ermənilərə hərbi hücum da etməmiş, yalnız ciddi xəbərdarlıqlarla kifayətlənmişlər. Lakin erməni gəlmələri bu xəbərdarliqlara məhəl qoymayib, ordu hissələrinə atəş acmış və yüzlərlə türk əsgərinin ölümünə səbəb olmuşdular. Yalnız bundan sonra Zəki paşa hərbi qruplaşmalar üzərinə hücum əmri vermiş və dövlətə itaətsizlik insidenti aradan qaldırılmışdır. Ciddi müqavimətə rast gələn hökümət qüvvələri və silahli qruplar arasında ciddi insan itkilərinin olması haqqında külli miqdarda müxtəlif göstəricilərə malik məlumatlar mövcuddur. Erməni müəllifləri həlak olanların (təqribən 3000 nəfər) hamısının ermənilərə aid olduğunu iddia edir və Qərbi Avropa müəllifləri də onların məlumatlarını sadəcə təkrar etmişlər. Lakin tarixə obyektiv şəkildə baxmağı bacaran hər bir tədqiqatçı iki hərbi qruplaşma arasında baş verən toqquşma nəticəsində heç də yalnız bir tərəfli itki verməsi ilə başa çata biləcəyi məsələsi absurddur.

Hadisələrin növbəti mərhələsi 1895-ci ilin yayında İstanbulda davam etmişdir. Sentiyabrın 30-da 2000-nə yaxın nümayişçi (silahlı formada), Sasus hadisələrinə həmrəylik bildirmək məqsədilə İstanbul küçələrinə çıxdılar və onlar polislə qarşılaşdılar. Nümayişçilər polisə güllə açdıqdan sonra, yenidən silahlı münaqişə baş verdi, nümayişçilərdən və polisdən onlarca həlak olanlar var idi. Bu isə İstanbulun müxtəlif yerlərində silahli münaqişələrə səbəb oldu və bu hadisələr dörd gün (oktyabrın 3-dək) davam etdi. Qarşıdurma seriyası Türkiyənin Şərqi Anadolu bölgəsində Ərzincan, Ərzurum, Gümüşhanə, Bayburt, Urfa və Bitlisdə də davam etmişdir. Bu hadisələrin ilkin tarixini yazan Lord Kinross hər iki tərəfin böyük itkilər verdiyini etiraf etmişdir [3]. Uydurma erməni genosidinin tarixini qələmə alan erməni tarixçi Raymond Kevorkyan isə erməni qüvvələrinin də Osmanlılara böyük itkilər bəxş etdiyini dəfələrcə öz əsərində etiraf etmişdir [5].

Hadisələrin növbəti kulminasiyası erməni-daşnakçı qüvvələrinin Avropa ölkələrinin diqqətini “erməni məsələsinə” cəlb etdirmək üçün bir sıra, Avropa dövlətləri kreditorlarının idarəçiliyində olan və İstanbulda yerləşmiş Osmanlı bankını ələ keçirməsi nəticəsində baş vermişdir. 1896-ci ilin avqustun 26-da, yaxşı silahlanmış erməni daşnak qüvvələri Osmanlı bankı binasını ələ keçirdilər və avropalı əməkdaşları girov götürdülər. Bankı partladacaqları ilə hədələdilər. Qiyamçılar türk hökümətindən vəd edilmiş siyasi islahatları keçirilməsini tələb etdilər. Bu insdentdən sonra yənə də iki tərəf arasında qarşıdurma baş verdi.

Bütün bu hadisələr erməni siyasi nümayəndələrini (M.Xrimyan başda olmaqla) Avropa arenasına çıxararaq bir sıra dairələrdə Osmanlı Türkiyəsinə nifrət oyada bildilər. Artıq Avropa dairələrində bir erməni dövləti yaradılması məsələsi maraq dairələrinə daxil olmağa başlamışdır, lakin 1897-ci ildə başlamış yunan-türk müharibəsi bu məsələləri demək olar ki, nisbətən səngitdi (Avropa ölkələri Krit adası uğrunda mübarizəyə girişmişdilər).

Bütün 1894-1896-ci illər hadisələri ərzində M.Xrimyan erməni əhalisinin bir qolunu Şərqi Ermənistan adlandırdıqları İrəvan quberniyası ərazisində yərləşdirilməsinə və onların bu əraziyə dəvət etdirilməsindən aparıcı rolu oynamışdır. Bununla da indiki Qərbi Azərbaycanda erməni əhalisinin sayının suni şəkildə artırılmasında növbəti tədbir keçirilmiş oldu. M. Xrimyan hətta qarşıdurmanın dayandırılması üçün dəfələrcə Rus imperatoru II Nikolay və başqa siyasi dairələrə yazılı sürətdə müraciətlər etmişdir. Bəzi erməni müəlliflərinin verdiyi məlumatlara görə M.Xrimyanın dəvəti ilə Şərqi Ermənistanda (Qərbi Azərbaycan) bu hadisələr nəticəsində 87.000 erməniyə yer verilmişdir [1].

1903-cü ilin iyulun 12-də imperator II Nikolay erməni kilsə və kilsə məktəblərinin əmlaklarını müsadirə edilməsi haqqında əmr verir. Katalikos M.Xrimyan bütün erməni din xadimlərini bu əmrə tabe olmamağa çağırır və şəxsən II Nikolaya öz narazılıq məktubunu göndərir. Məhz bu tədbirlərdən sonra imperator höküməti bu əmri həyata keçirməkdən əl çəkir. Görkəmli rus tarixçisi S.S. Oldenberq "İmperator II Nikolayın hakimiyyəti" adlı əsərində qeyd edirdi ki, erməni katalikosu Rusiya və Türkiyədə erməni milli təşkilatlarını himayə və inkişaf etdirmək üçün böyük maddi köməkliklər göstərir və onların yaradılması və inkişafını həmişə diqqət mərkəzində saxlayırdılar.

1905-1906-cı illərdə İrəvan quberniyası və Qarabağda baş vermiş erməni-müsəlman qarşıdurmasının əsas təşkilatçısı və təkanvericisi də məhz M.Xrimyan olmuşdur. M.Xrimyan nəyin bahasına olursa olsun bütün dünyaya səpələnmiş erməniləri bir yerə toplamağa və onların kompakt halda yığışaraq bir müstəqil erməni dövləti yaratmaq ideyasını həmişə bir nömrəli məqsədi hesab edirdi. Təsadüfi deyil ki, 1906-cı ilin avqustun 5-də M.Xrimyan Rusiya ermənilərinin milli yıgıncağını (Eçmiədzində) çağırır. Bu yığıncaqda 60 nümayəndə və 200 nəfər qonaq iştirak etmişdir. Yığıncağın əsas məqsədi cəmiyyət və kilsədaxili konfiliktləri qaydaya salmaq məsələsini müzakirə etməkdən ibarət idi. Qeyd etmək lazımdır ki, yığıncaq hökümət dairələri tərəfindən dağıdılmışdır. M.Xrimyan erməni birliyi yolunda əsas düşmən kimi müsəlman-türk milliyyətini görür və öz ermənilərini həmişə onlarla mübarizəyə səsləyir. M.Xrimyan ömrünün sonuna qədər bu mənfi əməlindən əl çəkməmiş, əksinə var gücü ilə onun inkişafina kömək etmişdir.

Ermənilərin özlərinin atası adlandırdıqları hayrik I M.Xrimyan 1907-ci ilin oktyabrın-29 da 87 yaşında Eçmiədzində vəfat etmişdir. Xrimyan noyabrn 6-da Eçmiədzin kilsəsinin həyətində dəfn edilmişdir. Lakin, onun səpdiyi münaqişə toxumları bu gün də anbaan cücərməkdədir.

## Ədəbiyyat


1. Аремян А., айоц Айрик (отец арияк), Тавриз, 1927.
2. Армянский вопрос, (под ред. К.С. Худавердияна), Ереван, 1991.
3. Лорд Кинросс, Расцвет и упадок Османский империи, Т.1, Москва, 1999.
4. Полотение армян в Турции до вмешательства держав в 1895 г., Москва, 1896.
5. Kevorkian R., The Armenian Genoside, A complete history, I,B, Tavris, 2011.